“Xalq qəzeti”.-2010.-14 may.-N 103.-S.5.

# “Heydər Əliyev və Qafqazda sülh prosesi”

**Lider və dövlət, lider və inkişaf – bunlar sıx vəhdət təşkil edir. Tarixi inkişafın bütün mərhələləri sübut edir ki, lideri olmayan dövlət heç vaxt tərəqqi edə, heç vaxt tanına, üzləşdiyi taleyüklü problemləri həll edə bilməz. Lideri olmayan dövlətin xalqı həmişə narahat yaşayır. Dünyanın inkişaf tarixi buna əyani sübutdur. Bu gün qloballaşan dünyada ən məşhur siyasətçilər, proqnozlaşdırıcılar şəxsiyyətin təntənəsi faktorunu müasir dövrün ən aparıcı inkişaf amillərindən sayırlar.**

Mürəkkəb hadisələrlə zəngin olan tarixi inkişafın elmi təhlilini verərkən, obyektiv olaraq, dövlət başçısının dövləti qoruyub saxlamaq məharəti, onun ölkəni inkişaf etdirmək strategiyasına münasibəti bildirilir. Belə bir təhlil subyektiv baxışlardan yox, obyektiv tələbatdan, dövlətin inkişaf qanunauyğunluqlarını, dövlətin idarə olunması prinsiplərini açmaq, gələcək inkişaf strategiyasını müəyyən etmək zərurətindən doğur. Bu gün də əvvəlki dövrlərə nisbətən qat - qat mürəkkəbləşən, qloballaşan dünyada hər hansı bir dövlətin fəaliyyətinə, onun inkişaf dinamikasına dövlət başçısının fəaliyyəti prizmasından baxılır. Çünki dövlət başçısı dövlətin qarantıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tarixi bir missiyanı uğurla, fədakarcasına yerinə yetirərək Azərbaycan dövlətinin, xalqının taleyində müstəsna rol oynamışdır. Təsadüfi deyildir ki, dünyanın ən nüfuzlu dövlət başçıları, siyasi xadimləri Heydər Əliyevi XX əsrin yetişdirdiyi böyük şəxsiyyətlərdən hesab edirlər. Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələndə o, Azərbaycanı SSRİ məkanında birincilər sırasına çıxarmaq vəzifəsini qarşıya qoymuşdu. O, buna nail oldu. İkinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin qarşısında Azərbaycanın müstəqilliyini xilas etmək, gənc müstəqil dövlətin ictimai-siyasi həyatında yaranmış xaosu aradan qaldırmaq, sabit və dinamik inkişafa xidmət etmək kimi məsuliyyətli missiya dururdu. Böyük şəxsiyyət Heydər Əliyev buna da nail oldu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında çox fikirlər söylənilib, kitablar yazılıb. Amma hesab edirəm ki, nə qədər deyilsə və nə qədər yazılsa da yenə azdır. Bu nəhəng şəxsiyyətin fəaliyyətinin bütün cizgilərinin tam əks etdirmək mümkün deyildir. Ona görə də Heydər Əliyev irsinin öyrənilməsi vacibdir. Bu nöqteyi-nəzərdən müasir Azərbaycan tarixinin ən dəyərli tədqiqatçılarından biri, tarix elmləri doktoru, professor İradə Hüseynovanın “ Heydər Əliyev və Qafqazda sülh prosesi” kitabı təqdirəlayiq, sanballı bir əsərdir. Kitabın zəngin strukturu diqqəti cəlb edir. Adından da göründüyü kimi, bu fundamental tədqiqat əsəri Heydər Əliyevin Qafqaz regionunda sülhün bərqərar olması istiqamətində həyata keçirdiyi fəaliyyətindən bəhs edir. Çox nəfis şəkildə tərtib olunmuş kitabı o dövrün şəkilləri müşayiət edir. Kitabın əvvəlində müəllifin Heydər Əliyev barəsində çox səmimi fikirləri öz əksini tapır. Sonra isə qısaca da olsa ümummilli liderin 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi təyin olunmasından sonra həyata keçirdiyi tədbirlər və müttəfiq respublikanı çox qısa zaman kəsiyində SSRİ məkanında birincilər sırasına çıxarması barədə dolğun informasiyanı özündə əks etdirən materiallar verilmişdir.

Müəllif çoxlu arxiv materiallarına müraciət edərək, sistemli və miqyaslı təhlil apararaq maraqlı faktları oxucuya çatdırır.

İradə Hüseynova 1990-cı il 20 Yanvar faciəsi zamanı Heydər Əliyevin tutduğu prinsipial mövqeyi də kitabda ətraflı işıqlandırır. Müəllif göstərir ki, Heydər Əliyev Azərbaycan SSR-in xalq deputatı seçildikdən sonra Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən birinci sessiyasında cəsarətlə çıxış edərək, sovet rəhbərliyinin yeritdiyi etnik separatizm siyasətinə kəskin etirazını bildirdi. Azərbaycan torpaqlarının zaman-zaman ermənilər tərəfindən işğal edilməsi faktlarını meydana çıxararaq, hələ 1918-ci ildə Ermənistan Respublikasının Azərbaycan Respublikasının torpaqlarını bir-birinin ardınca ələ keçirməsi nəticəsində Azərbaycan ərazisinin 1918-ci ildəki 114 min kv. km-dən 1990-ci ildə 86 min kv. km - dək azaldığını qeyd etdi. Heydər Əliyev təkcə Dağlıq Qarabağ məsələsinə toxunmurdu, o, bütövlükdə, Ermənistanın Azərbaycana qarşı torpaq iddiasında olduğunu bildirirdi. Ermənistanın təcavüzkar dövlət olması faktı sonralar Heydər Əliyevin səyi nəticəsində dünya ictimaiyyətinə çatdırıldı.

Kitabın üstün cəhətlərindən biri də Qafqazda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində Heydər Əliyevin “Ümumi Qafqaz evi” ideyasının geniş və əhəmiyyətli məzmun və mahiyyətinin açıqlanmasıdır. Tədqiqatçı hesab edir ki, “Ümumi Qafqaz evi” ideyasının əsas məzmunu regionun bütün dövlətləri arasında bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin yaradılmasından, insan hüquq və azadlıqlarına, din və etnik mənsubiyyətindən asılı olmayaraq, milli azlıqlara hörmət əsasında münasibətlərin qurulmasından, etnik və dini dözümlülüyün hər zaman gözlənilməsindən ibarətdir. Bununla yanaşı, müəllif hesab edir ki, bütün Qafqaz xalqlarının əsas hüquq və azadlıqlarının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsi, regionda gərginliyin aradan qaldırılması istiqamətində mehriban qonşuluq münasibətlərinin bərpa edilməsi, münaqişələrin həllinə maneçilik törədən xarici təzyiqlərin qarşısının alınması üçün beynəlxalq mexanizmin formalaşdırılması, bütün Qafqaz xalqlarının mənafeyinə tabe edilmiş xarici iqtisadi siyasətin yeridilməsi və bu xalqların dünya iqtisadi sisteminə inteqrasiyası üçün xarici və daxili amillərdən bəhrələnməsi “Ümumi Qafqaz evi” ideyasının əsas məzmununu təşkil edir. Geniş mənada desək,” Ümumi Qafqaz evi” ideyası

dünyanın zəngin mədəniyyət beşiyi olan Qafqaz xalqlarının mədəni irsi və dövlətçilik ənənələrinin qorunması və inkişaf etdirilməsinə, Qafqazda yerləşən dövlətlərin beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə, ərazi toxunulmazlığına hörmətlə yanaşılmasına xidmət edir. Heydər Əliyevin bu istiqamətdə gördüyü işlər kitabda müfəssəl şəkildə öz əksini tapmışdır.

Müəllif hesab edir ki, Qafqaz regionunda əsaslı iqtisadi islahatların aparılması, xarici sərmayələrin cəlb edilməsi, ən başlıcası isə Azərbaycanla yanaşı, bütün bölgələrin sivilizasiyalı beynəlxalq birliyə iqtisadi inteqrasiyasının dərinləşməsi istiqamətində Heydər Əliyevin xidmətləri müstəsna əhəmiyyət kəsb edir. 1994-cü il sentyabrın 20-də Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycan paytaxtında ilk neft müqaviləsinin imzalanması ölkənin neft sahəsinə fəal surətdə xarici sərmayələrin cəlb edilməsi ilə yanaşı, həm də Cənubi Qafqaz regionuna maraq oyada biləcək güclü bir stimula çevrildi. Bu hadisə Qafqaz və bütün Xəzəryanı regionda coğrafi - siyasi vəziyyəti kökündən dəyişdi və beynəlxalq aləmdə Azərbaycanın öz təbii ehtiyatlarından müstəqil surətdə istifadə etməyə qadir olduğunu nümayiş etdirdi. Neft sahəsində külli miqdarda sərmayə axını Azərbaycan iqtisadiyyatının inkişafı, qeyri-neft sahələrinin canlanması, yerli sahibkarların yaranması ilə yanaşı, Qafqazda iqtisadi inteqrasiyanın da dərinləşməsinə güclü təkan verdi.

Heydər Əliyevin çoxsaylı fəaliyyət sahələrindən biri də qloballaşan dünyada Azərbaycanın mövqeyini müəyyənləşdirmək istiqamətində gördüyü işlərdir. “Əsrin müqaviləsi” kimi nəhəng layihə ilə yanaşı, Qafqazda iqtisadi inteqrasiyanın təmin edilməsi istiqamətində Böyük İpək yolu layihəsi də müstəsna əhəmiyyət kəsb etdi. Bu layihə Qafqaz ölkələri ilə Böyük İpək yolu üzərində yerləşən digər ölkələrin iqtisadi əməkdaşlığında yeni səhifə açmış oldu. Qafqazın Mərkəzi Asiya və Qərblə iqtisadi inteqrasiyasının dərinləşməsi son nəticədə bölgədə iqtisadi dirçəlişə, sülhün və sabitliyin möhkəmlənməsinə nail olmağa kömək etməlidir. Bu böyük layihənin reallaşmasında isə əsas təşəbbüskarlardan biri, şübhəsiz ki, Heydər Əliyev olmuşdur. Heydər Əliyev bu amili regional təhlükəsizliyin və sabitliyin əsas elementlərindən birinə çevirməyə müvəffəq oldu. Çünki o, Azərbaycan və Qafqazla bağlı bütün qlobal layihələrin Qafqazda və xüsusilə Cənubi Qafqaz regionunda sülh və regional təhlükəsizliyə istiqamətləndirilməsini təmin etmişdir. Müəllif yuxarıda sadalanan beynəlxalq layihələrin həyata keçirilməsində ümummilli liderin rolunun və nüfuzunun nə dərəcədə yüksək olduğunu konkret faktlarla əsaslandırır.

Müəllif tamamilə haqlı olaraq göstərir ki, Heydər Əliyev dünyanın bir çox nüfuzlu siyasi xadimləri tərəfindən Böyük İpək yolu layihəsinin iştirakçıları olan ölkələrin iqtisadi strukturları arasında əməkdaşlıq proseslərinin gücləndirilməsinin, enerji və nəqliyyat kommunikasiyalarının sabitliyini yaradan ümumi mexanizmlərin formalaşmasının və TRASEKA proqramı kontekstində Qafqazın Avropa Birliyinə iqtisadi inteqrasiyasının təmin edilməsi istiqamətində müstəsna xidmətlər göstərmiş bir dövlət və siyasi xadim kimi qiymətləndirilmişdir.

Konkret faktlara, tarixi dəlillərə əsaslanan müəllif Azərbaycanın Gürcüstan, Türkiyə, Rusiya, ABŞ və Avropa Birliyi ilə qurulmuş qarşılıqlı faydalı əməkdaşlığında Heydər Əliyevin rolunu xüsusi vurğulamışdır. Apardığı təhlillər nəticəsində müəllif böyük öndərin bu sahədəki tarixi uzaqgörənliyini bir daha oxuculara çatdırır.

XX əsrdə xalqımız bir neçə inkişaf mərhələsi keçsə də, özünün milli-mənəvi dəyərlərinin, qədim mədəniyyətinin, dilinin sürətli tərəqqisinə nail olmuşdur. Bu gün fəxrlə demək olar ki, müstəqil Azərbaycanın düşünülmüş milli inkişaf konsepsiyası vardır. Ulu öndər Heydər Əliyev təcrübəli lider kimi dünya dövlətləri birliyinin əldə etdiyi meylləri nəzərə aldı və Azərbaycanın xüsusiyyətlərinə, geosiyasi şəraitinə, milli mənafelərinə uyğun inkişaf strategiyasını müəyyən etdi ki, bu da uğurla həyata keçirilir. Kitabda konkret faktlarla göstərilir ki, Heydər Əliyev Qafqazın zəngin tarixinə, burada yaşayan xalqların milli-mənəvi dəyərlərinə həmişə böyük hörmətlə yanaşırdı.

Heydər Əliyev Qafqaz regionunda milliliklə dünyəviliyin vəhdətinə, tolerantlığın mövcudluğuna, dövlət və din münasibətinə xüsusi qayğı və həssaslıqla yanaşırdı. Bu baxımdan, respublikanın şəhər və rayonlarında məscidlər tikildi, dini abidələr bərpa olundu, minarələrdən azan səsləri eşidildi, diqqətdən kənarda qalmış müqəddəs ocaqlar, ziyarətgahlar yenidən canlandı, Gürcüstanda, Dağıstanda yaşayan soydaşlarımızla mədəni-elmi əlaqələr xeyli genişləndi. Hazırda bu istiqamətdə ciddi addımlar atılır. Qürur hissi ilə demək olar ki, bu gün minlərlə gənc milli-mənəvi dəyərləri qorumağı özünün müqqədəs vəzifələrindən biri hesab edir, ilahi varlığı dərk edərək mənəvi paklığa qovuşur.

Ümummilli lider Heydər Əliyev tolerantlıq, dünyəvilik istiqamətində milliliyi, Qafqazda sülhü qoruyub saxlamağı başlıca amil hesab edərək öz çıxışlarında belə deyirdi: “Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq”.

Bu gün Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə Qafqazda liderdir. Azərbaycanın uğurları nəinki Qafqaz regionunda, eləcə də bütövlükdə Avropada sivil, demokratik cəmiyyət quruculuğunda vacib amillərdən sayılır. Azərbaycanla hesablaşırlar, ona sülhsevər dövlət kimi baxırlar. Bütün bunlar Qafqazda sülh üçün möhkəm zəmin yaradır. Ölkədə həyata keçirilən siyasətin kökündə biz milli-mənəvi dəyərlərə xüsusi diqqət və qayğı görürük. Bütün bunların təməli isə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycana gələn investorların bizim milli-mənəvi dəyərlərə, tariximizə, dinimizə, dilimizə, etik normalara necə riayət etməsi məsələsinə həssaslıqla yanaşması tədqiqatçının əsərində çox qabarıq şəkildə öz əksini tapmışdır. Müəllif bu məsələlərin təhlilinə məhz bir fəsil həsr etmişdir.

XXI əsr dinlə və mədəniyyətlərarası dialoqun inkişafı baxımından tarixi bir dövrdür. Heydər Əliyev Azərbaycanı nəinki Qafqaza, eləcə də bütün dünyaya tolerantlığın mövcudluğunu tarixən özündə yaşadan bir ölkə kimi tanıtdırmışdır.

Kitabın müəllifi bu nəhəng şəxsiyyətin Qafqazda sülh prosesinə təsirini konkret faktlarla açıqlamışdır. Tam məsuliyyətlə demək lazımdır ki, bu dərin məzmunlu kitab professor İradə Hüseynovanın yorulmaz yaradıcı əməyinin bəhrəsidir.

Tarix sübut edir ki, xalq öz xoşbəxt və firavan gələcəyini nəzərə alaraq onun təəssübünü çəkən insanları heç vaxt unutmur. Çünki yaxşılığa, xeyrə xidmət edən şəxsiyyətlərin əməyi heç vaxt hədər getməyəcək. Heydər Əliyevlə görüşmək şərəfinə nail olmuş xarici qonaqlar dəfələrlə onun böyük şəxsiyyət, genişmiqyaslı bir insan olduğunu vurğulayırdılar. O, sülhü, ədaləti cəmiyyətdə barışığı tərəqqinin başlıca amillərindən hesab edirdi. İllər, onilliklər keçəcək, Heydər Əliyevin Qafqazda sülhün bərqərar olunması istiqamətində müəyyən etdiyi vəzifələr tam həyata keçiriləcəkdir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması isə nəinki Qafqazda, eləcə də bütün dünyada ədalətin zəfər çalması kimi qiymətləndiriləcək.

Professor İradə Hüseynovanın "Heydər Əliyev və Qafqazda sülh prosesi" kitabı Qafqaz regionunda sülhün bərqərar olmasının, Azərbaycanın iqtisadi və siyasi gücünün artması naminə səylərin birləşdirilməsinin vacibliyini vurğulayır. Hesab edirəm ki, bu elmi - tədqiqat əsəri Azərbaycan tarixini öyrənənlər üçün əvəzsiz töhfə olacaqdır.

**Ziyad SƏMƏDZADƏ,**
**akademik**